# Qəbələ dağlarındakı göllər—gözəlliyin billur qaşı

***Qəbələ rayonu öz füsunkar təbiəti ilə artıq nəinki vətənimizdə, sərhədlərimizdən də çox uzaq ölkələrdə məhşurdur. Ancaq Qəbələnin özündə belə əhalinin xeyli hissəsi şimaldakı başı qarlı, gözəlliklərə bürünmüş bu dağlarda əsrarəngiz gözəlliyə yeni çalarlar qatan çoxsaylı billur sulu göllərin olmasından xəbərsizdir. Rayon əhalisinin, rayonumuza təşrif buyuran qonaqların, turistlərin marağını nəzərə alaraq Qəbələ Rayon Təhsil Şöbəsinin metodisti Nüsrət Nuriyevin Qəbələ rayonu ərazisindəki, xüsusən, uca dağlarda qərar tutmuş göllər haqqında yazısını dərs edirik.***

***Qəbələnin gölləri, ümumiyyətlə əvəzolunmaz gözəl təbiəti barədə daha geniş və əhatəli materiallar Nüsrət Nuriyevin 2009-cu ildə «Cənclik» nəşriyyatında çap olunmuş «Qafqazın aynası—Qəbələ» kitabında verilmişdir.***

Qəbələ rayonunun ərazisindəki göllərin böyük əksəriyyəti Dəmiraparan çayının hövzəsində, dəniz səviyyəsindən 2300—3380 m. hündürlükdə yerləşir. IV dövr buzlaşması zamanı dağ buzlaqlarının yaratdığı çuxurlarda (buzlaq mənşəli) və dağlararası cökəkliklərdə yerləşən bu göllərin sayı 10-a qədərdir.

Coxsulu dövrdə onların sahəsi 0,1—3,8 ha. arasında dəyişir. Dəmiraparan çayının və onun qollarının qida mənbəyi rolunu oynayan bu göllərin ən başlıcaları aşağıdakılardır.

**Tufangöl** Dəmiraparan cayının sol qolu Tufançayın sağ qolunun mənbəyindən 4 km şimallda, dəniz səviyyəsindən 3.277 m yüksəklikdə yerləşir. Buzlaq (Morlu) mənşəli olan Tufangöl qar və buzlaq suları ilə qidalanan şirinsulu göldür.

Gölün uzunluğu 160 m, eni 125 m, coxsulu dövrdə sahəsi 3,8 hektara catır. Dərinliyi 5—6 m-ə catan Tufangölün suyu yay aylarında şəffaf olur və 2 m-ə qədər dərinlikdə gölün dibi aydın görünür. İyul ayında gölün suyunun temperaturu +10 dərəcədən yüksək olur.

Tufangölün əhatəsi ilin 8 ayı buludlu, qarlı, çovğunlu kecir. Bəzən qar örtüyü bütün il ərzində əriməyə macal tapmır. Bu yerlərə bələd olan köcəri maldarlar (yerli əhali) Tufangölü Nuhun gölü kimi tanıyırlar. Rəvayətə görə guya gölün sahilində Nuhun gəmisinin parcalanmış qalıqlarına rast gəlinmişdir. Lakin Tufandağ, «Tufancay» və «Tufangöl» adları çox güman ki, qeyd olunan coğrafi ərazinin sərt, tufanlı-qasırğalı təbiəti ilə əlaqədardır.

**İsmayıl Bəy Qutqaşınlı gölü** Tufangöldən 4 km şimalda Dəmiraparan çayının sol qolunun mənbəyindən 3 km şimalda, dəniz səviyyəsindən 3305 m. yüksəklikdə yerləşir. Sahəsi 1,3 hektar olan bu göl qar suları ilə yanaşı yaxınlıqdakı gursulu bulaq suyu ilə qidalanır. Göldən hec bir çay başlamır. Lakin yeratı çatlar vasitəsi ilə gölün suyu Dəmiraparan cayının qoluna axır. Adsız göl olduğu üçün 1961-ci ildə tədqiqatçılar tərəfindən bu gölə həmyerlimiz, yazıçı və hərbi sahədə xidmətlərinə görə general-mayor rütbəsinə yüksəlmiş məşhur sərkərdə Hacı İsmayılbəy Qutqaşınlının (1806—1869) adı verilmişdir.

Qeyd edək ki, vaxtı ilə Çar Rusiyası tərəfindən gölün yerləşdiyi bu ərazi xidmətlərinə görə İ. Qutqaşınlıya hədiyyə olaraq verilmişdir.

**Güləkgöl** İ. Qutqaşınlı gölündən 1 km. qərbdə, okean səviyyəsindən 3.380 m. hündürlükdə (rayon üzrə ən yüksəkdə yerləşən göldür) yerləşir. Gölün uzunluyu 145, eni isə 110 metr olub, sahəsi maksimum səviyyədə 3,6 hektara (az sulu dövrdə isə 2 ha) catır. Güləkgölün qidalanmasında yeraltı sularla yanaşı hövzədəki qar suları da mühüm rol oynayır.

Gülək gölün ətrafında sahəsi 0,1 hektara qədər olan daha 5 adsız göl var. Güləkgöldən 50 m şimalda sahəsi 1000 m-dən çox, qalınlığı 5 metrə catan geniş qar «talası» vardır ki, buradakı qarın əriməsi nəticəsində yaxınlardakı göllərə xeyli miqdarda (2litr (saniyə) su axır.

**Qoturgöl** Dəmiraparan çayının sol qolu olan Arpalı çayın mənbə hissəsində, dəniz səviyyəsindən 2340 metr yüksəklikdə qapalı dağarası çökəklikdə, yaylaq zonasında yerləşir. Gölə şimal-şərq tərəfdən kiçik çay axır. Qotur göl axarlı göl olub, cənubi-qərb tərəfdən Arpacayın sol qolu bu göldən başlanğıc alır. Tədqiqatçıların fikrincə sabit qidalanma rejiminə malik olan Qotur-gölün qarşısında bənd çəkməklə ondan təsərrüfat məqsədləri üçün su anbarı kimi istifadə etmək olar. Gölə verilən coğrafi adın mənşəyi suyun müalicəvi əhəmiyyətinə görə, qoyun-quzuda rast gələn qoturluq xəstəliyinin qarşısını almaqda əhalinin bu sudan istifadə etməsi ilə əlaqədardır.

**Nohur gölü** (Nohurqışlaq su anbarı) Qəbələ şəhərindən 3 km. cənubi-şərqdə, Nohurqışlaq kəndindən bir km qədər şimalda, Güllübürün, Göydağ və Yumurudağların arasındakı təbii cuxurda, dəniz səviyyəsindən 700 m hündürlükdə yerləşir. 1949-cu ilə qədər təbii göl kimi mövcud olan Nohur gölünün ətrafı sıx qamışlıq, və su bitkiləri ilə örtülü bataqlıq, mərkəzi hissəsindəki dərin çuxurluqda isə sarı-yaşıl rəngdə suyu olan göl yerləşirdi.

1949-cu ildə bu gölün cənub hissəsində (Güllü burun dağı ilə Yumurudağ arasında uzunluğu 850 m, hündürlüyü 8—10 m., eni 4—6 m. olan torpaq bənd çəkilərək su anbarı yaradılmışdır. Su anbarının uzunluğu 1925 m., eni 1355 metr, sahəsi 240 hektardır. Maksimum dərinliyi 24 m-ə, suyunun həcmi isə 16 milyon kubmetrə catır. Nohurqışlaq su anbarına Dəmiraparan (70 %) və Vəndam (30 %) çaylarının suyu axıdılır.

Nohurqışlaq su anbarı qeyd olunan çayların suyunun tənzimləməklə yanaşı Qəbələ, Ağdaş, Göyçay və Ucar rayonlarının təsərrüfatlarının suya olan tələbatını ödəmək məqsədi daşımasına görə mühüm əhəmiyyət kəsb edir. Digər tərəfdən Qəbələ—İsmayıllı—Bakı avtomobil yolunun kənarında yerləşən bu sututar yerli əhalinin, turist və qonaqların ən sox maraq göstərdikləri istirahət zonalarından biridir. Nohurqışlaq su anbarının göl balıqçılığının (akvakultura) və idman (avarçəkmə) inkişaf etdirilməsi baxımından da əhəmiyyəti böyükdür. Hazırda su anbarının şimal, cənub-qərb və şərq sahillərində istirahət zonaları fəaliyyət göstərir.

Bəzən sərt keçən qış aylarında Nohur gölünün səthi tamamilə buz bağlayır. 1953-cü ilin qışında gölün səthindəki buz örtüyünün qalınlığı 40—50 sm-ə catırdı. Nohurqışlaq su anbarının səthinin tamamilə buzla örtülməsi halı 2007-2008-ci ilin qışında da təkrar olunmuşdur.

**Nüsrət NURİYEV,**
**Qəbələ Rayon Təhsil Şöbəsinin metodisti.**

# Onun həyat yolu

Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, müəllimlik çox şərəfli bir işdir. Müəllim olub kiməsə bilik vermək, tərbiyə etmək şərəfli olduğu qədər də məsuliyyətlidir.

Haqlı olaraq müəllimi cəmiyyətin güzgüsü adlandırırlar. Müəllim yeganə şəxsdir ki, cəmiyyət öz övladlarını ona etibar edir, onun gələcəyini müəllimə tapşırır. Müəllim sözün əsl mənasında şagirdə müəllim olmaqla yanaşı ona həm də dayaq olmalıdır.

Əhmədiyyə Əbdürrəhimov da məhz belə müəllimlərdən, belə ziyalılardan olub. Bu gözəl və dəyərlii insan sözün əsl mənasında öz şagirdlərinin yolunda şam kimi əriyib. Bəs kim olub Əhmədiyyə müəllim?

Əhmədiyyə Məlik oğlu Əbdürrəhimov 1928-ci ilin iyun ayının 15-də Zalam kəndində kolxozçu ailəsində dünyaya gəlib. 1935-ci ildə Zalam kənd 7 illik məktəbin 1-ci sinfinə qədəm qoyub. Orta təhsilə 1945-ci ildə Hacallı kənd tam orta məktəbində yiyələnib. O, orta məktəbdə «əla» qiymətlərlə oxuyub, müəllimlərin sevimlisi olub, ictimai işlərdə fəallıq göstərib. Məhz buna görə də rayon maarif şöbəsi 1945-ci ildə ehtiyaca görə onu Zalam kənd orta məktəbinə ibtidai sinif müəllimi təyin edir. O, bu etimadı layiqincə doğruldur, tezliklə bacarıqlı bir müəllim kimi tanınır.



Əhmədiyyə Əbdürrəhimov 1950-ci ildə həqiqi hərbi xidmətə çağırılır. Hərbi xidmətini də layiqincə yerinə yetirən Ə. Əbdürrəhimov 1953-cü ildə ordudan tərxis olunur və 1954-cü ildə yenidən Zalam məktəbində müəllimliyini davam etdirir. İşlədiyi illərdə bir neçə dəfə ixtisasartırma kurslarından keçir. O, həm də Şamaxı Pedaqoji Texnikumunda təhsilini davam etdirir. Çalışdığı illərdə el arasında dərin hörmət qazanır, şagirdlərin sevimlisinə çevrilir. Məktəbin və kəndin ictimai işlərində fəal iştirak edir. Əhmədiyyə Əbdürrəhimov nümunəvi işinə görə 1973-cü ildə «Əmək qabaqcılı» medalı ilə təltif edilmişdir. Onun yetirmələri müəllim, həkim, mühəndis, tibb bacısı və sair peşələrə yiyələnmişlər. Ömrünün 33 ilini məktəbə bağlayan Əhmədiyyə müəllim gənc nəslin savadlanması yolunda can qoymuşdur. Həmişə qurub yaratmaq eşqi ilə yaşayan müəllim kəndin problemləri ilə də maraqlanmışdır. O, ömrünün 50-ci baharında—1978-ci ildə öz doğmalarından əbədi olaraq ayrılmışdır. Əhmədiyyə müəllim 7 övlad böyüdüb tərbiyə etmişdir. Onun 2 övladı atasının yolunu davam etdirmişdir. Seyran (mərhum) tarix müəllimi idi. Emin isə Ağdaş Pedaqoji texnikumunu bitirib. Yenikənd orta məktəbində işləyir.

Ürəklərdə yaxşı bir ziyalı, bacarıqlı müəllim kimi qalan Əhmədiyyə Əbdürrəhimovun həyat yolu gənclər üçün nümunədir, həyat məktəbidir.

**Emin BARATOĞLU,**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü,**